www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-17 (1734) 15 oktyabr 2021-ci il



## Tamerlan Əliyevin yubileyinə həsr olunmuş beynəlxalq konqres keçirilib

### Professor Gəray Gəraybəyli: Onun elmi irsi, xeyirxah əməlləri yaşayacaq və daim tibb sahəsinin inkişafı üçün təməl rolunu oynayacaq

səh. 3

## ATU-da böyük alimin barelyefi açılıb




**Görkəmli alim, Əməkdar elm xadimi, professor Tamerlan Əziz oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətlə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Endokrinologiya şöbəsində barelyefinin açılışı olub.**

Mərasimdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli T.Əliyevi Azərbaycan tibb elminin və səhiyyəsinin öndər nümayəndəsi adlandırıb: “Görkəmli elm xadimi Tamerlan Əliyevin ölkəmizdə tibb elminin inkişafında danılmaz xidmətləri olub. Həm də yüksək insani keyfiyyətləri ilə seçilən professor T.Əliyev Azərbaycan üçün yüksək ixtisaslı kadrların yetişdirilməsi işinə misilsiz töhfə verib. Fəaliyyətinin müəyyən dövrü Tibb Universiteti ilə bağlı olan Tamerlan Əliyevin 100 illik yubileyi bizim ali məktəbdə də geniş qeyd olunur”.

Rektor bildirib ki, artıq ATU-da T.Əliyevin 100 illiyi ilə bağlı silsilə tədbirlərə start verilib. Belə ki, ayın əvvəllərində universitetdə Gənc alimlər və tələbələrin konfransı keçirilib. Daha sonra isə dünyanın aparıcı elmi müəssisə və ali məktəblərinin nümayəndələrinin iştirakı ilə beynəlxalq konqres təşkil olunub.

Görkəmli alimin qızı Tamfira Əliyeva göstərilən diqqət üçün ATU rəhbərliyinə təşəkkürünü bildirib. Atası haqqında xatirələrini bölüşən Tamfira xanım onun iş həyatında Tibb Universitetində olduğu illərin mühüm rol oynadığını qeyd edib.

Sonra barelyefin açılışı olub. Mərasimdə Tamerlan Əliyevin ailə üzvləri, yaxınları ilə yanaşı, ATU-nun nümayəndələri də iştirak ediblər.



### “Göstərir, öyrədir, sonra da yoxlayırıq”

*ATU-nun Tədris Treninq Mərkəzi tələbələrin tədrisi praktik cəhətdən keyfiyyətli mənimsəməsinə yardım edir*

səh. 5

### ATU-nun rektoru Polad Həşimovun qızına tələbə biletini təqdim edib

səh. 2

### Ana südü qəbul etmək hər bir uşağın haqqıdır

səh. 7



### Torpağı Vətən edən gülərüz oğlan

*Turqut Xəlilbəyli həyatı bahasına olsa da, həkim peşəsinə sədaqət andını pozmadı*

səh. 6

# ATU-nun rektoru Polad Həşimovun qızına tələbə biletini təqdim edib

**Xəbər verdiyimiz kimi, şəhid Milli Qəhrəman, general-mayor Polad Həşimovun qızı Aybəniz Həşimova Azərbaycan Tibb Universitetində təhsil alacaq.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli gənc tələbəni və anası Ofelya Salmanovanı qəbul edib.

Tibb Universitetinin böyük ailəsinə qatılması münasibətilə A.Həşimovanı təbrik edən rektor, ildönümünü yaşadığımız Vətən müharibəsinə toxunub. Bildirib ki, Polad Həşimov da daxil olmaqla bütün şəhidlərimizin, ordumuzun sayəsində biz artıq rayonlarımızın işğal günlərini deyil, azadolunma tarixlərini böyük qürurla qeyd edirik: "Bu tarixi qələbə Azərbaycan xalqına tamam başqa bir ruh, başucalığı gətirdi. Ali Baş Komandanın müdrikliyi, əsgərdən generala kimi bütün hərbçilərimizin qəhrəmanlığı və Azərbaycan xalqının yumruq kimi birləşməsi nəticəsində biz çox gözlədiyimiz qələbəni əldə etdik və 30 il davam edən ədalətsizliyi aradan qaldırdıq".

Hər bir insan üçün valideyn itkisinin çox ağır olduğunu söyləyən professor Gəray Gəraybəyli əlavə edib ki, əgər Polad Həşimov şəhid olana kimi Aybəniz tək onun qızı idisə, ondan sonra artıq bütün Azərbaycanın övladıdır.

Sonra rektor Tibb Universiteti, onun tarixi haqda məlumat verib, generalımızın qızının ən azı 6 il ATU ailəsinin üzvü olacağından məmnunluğunu ifadə edib.

Aybəniz Həşimovaya təhsildə uğurlar arzulayan ATU-nun rektoru ona tələbə biletini və universitet adından hədiyyə olaraq noutbuk təqdim edib.

O da bildirilib ki, universitetin Elmi Şurasının qərarı ilə A.Həşimovaya əlavə olaraq 200 manat məbləğində təqaüd ayrılıb.

Universitetin rəhbərliyinə göstərilən diqqətə görə təşəkkürünü bildirən Ofelya Salmanova qızının müəllimlərinin gözləntilərini doğruldacağına və yaxşı bir həkim kimi yetişəcəyinə əmin olduğunu söyləyib.



**Bu günlərdə Qırğızıstan-Türkiyə Manas Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli nümayəndə heyəti ilə görüşdə universitet haqda geniş məlumat verib.**

# Beynəlxalq əlaqələrimiz genişlənir

## Qırğızıstan-Türkiyə Manas Universiteti ilə yeni müqavilə imzalanıb

Rektor qeyd edib ki, Tibb Universiteti öz fəaliyyətində xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasına böyük önəm verir: "Xüsusilə qardaş Türkiyənin universitetləri ilə son illərdə yaxşı əlaqələrimiz formalaşıb. Hazırda 30-dan çox universitetlə müqaviləmiz qüvvədədir. Bildiyiniz kimi, ATU hərtərəfli tibb təhsili verir. Böyük tarixi olan universitetimizin 6 fakültəsi var: tibb, stomatologiya, əczaçılıq, ictimai səhiyyə və hərbi tibb. O cümlədən ATU-nun 4 müasir klinikası fəaliyyət göstərir".

Professor G.Gəraybəyli bildirib ki, ötən il universitetimizin 90 illiyi qeyd olunub: "Universitetdə tədris yönümlü yeniliklər aparılır, proqramlar müasirləşdirilir, ikili diplom məsələsi üzərində iş davam edir. Xüsusi qeyd etmək istəyirəm ki, bizim universitet xarici tələbə sayına görə Azərbaycanda birinci yerdədir, 2000-dən artıq əcnəbi tələbəmiz var".

Manas Universitetinin Türkiyə üzrə rektoru, professor Alpaslan Ceylan rəhbəri olduğu təhsil müəssisəsi haqda məlumat verib: "Biz Türkiyə və Qırğızıstanın ortaq universitetiyik. Buranı bitirən tələbələr hər iki ölkədə diplom alır. Və hər iki diplom digər diplomlar qədər tanınır. Yəni bizim sənədimiz digər Türkiyə universitetlərinin diplomları ilə eyni statusdadır. Dərslər isə həm Qırğızıstan, həm də Türkiyədən olan müəllimlər tərəfindən aparılır".

Qeyd edək ki, indiyədək ATU ilə Qırğızıstan-Türkiyə Manas Universiteti arasında əsasən humanitar və elmi sahələri əhatə edən əməkdaşlıq müqaviləsi olub. Lakin onun müddəti başa çatdığı üçün görüş zamanı yenilənib.

Bu haqda danışan Manas Universitetinin Qırğızıstan üzrə rektoru, professor Asılbek Kulmırzayev hazırki müqavilənin daha işlək olacağına əminliyini bildirib. Çünki gələn ildən etibarən universitetin tibb fakültəsi fəaliyyət göstərəcək və bununla da fakültələrin sayı 12-ə çatacaq: "İnanıram ki, biz tezliklə müəllim, həkim, eləcə də tələbə mübadiləsinə başlaya biləcəyik".

Görüşdə Qırğızıstan-Türkiyə Manas Universitetinin baş katibi, dosent Oktay Özgül, ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak edirdilər.

# Oxumaq, oxumaq və... qorunmaq

## Professor Sabir Əliyev: Tədris prosesinin pandemiya şərtləri daxilində optimal təşkili üçün bütün tədbirlər görülür

**Bu tədris ilində ölkəmizin bütün ali və orta ixtisas məktəblərində olduğu kimi, Azərbaycan Tibb Universitetində də dərslərin ənənəvi qaydada keçirilməsi bərpa olunub. Pandemiya dövrünün şərtləri nəzərə alınmaqla, universitetdə tədris prosesi üçün yaradılan şərait, o cümlədən bir sıra mühüm yeniliklər barədə məlumat almaq üçün ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevə üz tutduq.**



Prorektor bildirdi ki, dərslər başlamazdan öncə Rektoryanı Şurada yeni tədris ili ilə bağlı müxtəlif məsələlər müzakirə olunub, əməkdaşlara lazımi tapşırıqlar verilib. Həmçinin bütün kafedralarda geniş dezinfeksiya işləri aparılıb, universitetin mühafizə işi gücləndirilib, vaksinasiya olunmayan əməkdaşların və tələbələrin universitet şəhərciyinə daxil olmasının qarşısı alınıb. Bütün bunlarla yanaşı, üç əsas qaydaya – tibbi maska, dezinfeksiya və ara məsafəsinə əməl olunmasına ciddi nəzarət edilir: "Əvvəllər bu sahədə bəzi humanitar meyarlara yer verilirdi. İndi isə dərslər ənənəvi qaydada başlayıb, yaş məhdudiyyəti yoxdur, bütün müəllim-tələbə heyəti vaksinasiyadan keçib. Bildiyiniz kimi, əvvəllər yaşı və səhhəti nəzərə alınaraq 65 yaşdan yuxarı əməkdaşlara müəyyən güzəştlər edilirdi, onların mümkün qədər az işə gəlmələri tövsiyə olunurdu. Lakin indi universitetin hər bir pedaqoji işçisi tədris ilinin başlanmasında fəal iştirak edir. Müşahidələr də göstərir ki, yoluxma sayı azaldıqca, ölkəmizdə bir sıra məhdudiyyətlər get-gedə aradan qaldırılır".

Pandemiya ilə bağlı universitetdə tətbiq olunan qaydaları diqqətə çatdıran professor S.Əliyev vurğuladı ki, mühazirələr zamanı auditoriya zallarının tutumuna uyğun olaraq say tərkibi 70%-ə qədər azaldılıb: "Tutaq ki, mühazirə zalı 100 nəfərlikdirsə, orada 70 tələbənin iştirakına icazə verilir. Bəzən kafedralardan bizə müraciətlər olur ki, ara məsafələri azdır. O zaman məcburuq ki, həmin qruplarda növbəli sistemdə tədris aparaq. Amma saatların itirilməməsi şərtilə. Bir məsələ də var ki, hələlik 18 yaşdan yuxarı olanlar üçün peyvənd tələbi var. Lakin gələcəkdə daha aşağı yaşlıların vaksinasiyası aparılsa, bizdə də yaşı 18-dən kiçik olan tələbələrin peyvənd olunması gündəmə gələcək.

Hazırda bəzi auditoriyalarımızın kiçik olması işimizi çətinləşdirir. Lakin çalışırıq ki, müəllimə lazım olan saatı saxlamaqla və əlavə saat vermədən tələbələrin bölünməsini təşkil edək. Hələlik ciddi bir problemimiz yoxdur. İstər tələbələrin dərsliklərlə təmin olunmasında, istərsə də dərs yükü ağırlığının aradan qaldırılmasında münasib üsullardan istifadə edirik. Universitetimizin rektorunun tövsiyə və göstərişlərinə uyğun olaraq, həm kitabxananın oxu zallarında, həm də auditoriyalarda sıxlıq yaranmaması üçün gələcəkdə də lazımi tədbirlər görüləcək".

ATU ailəsinə yeni qatılan tələbələr haqqında da məlumat verən S.Əliyevin sözlərinə görə, universitetimizə bu il 1281 nəfər qəbul olunub. Onların 871-i Azərbaycan bölməsinə, 370-i xarici bölməyə, 40 nəfər tələbə isə hərbi feldşerliyə daxil olub: "Bu il ali məktəblərə keçirilən imtahanlarda 391 nəfər yüksək nəticələr göstərərək 600-dən yuxarı bal toplayıb və universitetimizin tələbəsi adını qazanıb. Prezident təqaüdçüsü adına layiq görülən 25 tələbə hər il olduğu kimi, bu il də bizim universiteti seçib. Bu artıq bir ənənə halını alıb. ATU bu il də öz yüksək reytinqini qoruyub saxlaya bilib".

Prorektor onu da qeyd etdi ki, bu il universitetimizə Vətən müharibəsində şəhid olan qəhrəman oğullarımızın da övladları qəbul olunub: "Bu günlərdə rektor, professor Gəray Gəraybəyli həmin tələbələrlə görüşdü və onların universitetin əməkdaşları, eləcə də rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunacağını söylədi".

Artıq yeni tədris ili başlasa da, universitetimizdə təhsil alan əcnəbi tələbələrin hələlik tam heyətlə dərslərdə iştirak edə bilmədiyini nəzərə çatdıran müsahibimiz, onların gecikməsi ilə bağlı rəhbərlik tərəfindən Operativ Qərargaha müraciət olunduğunu dedi: "Məlum vəziyyətlə əlaqədar olaraq, xarici tələbələrin dərsə gecikməsinin müəyyən səbəbləri var, amma ümidvaram ki, bu problem də tezliklə aradan qalxacaq".

Professor Sabir Əliyev sonda əlavə etdi ki, universitet rəhbərliyi həmişə olduğu kimi, bu çətin dövrdə də tədris prosesini tam nəzarətdə saxlayır: "Hazırda pandemiya səbəbindən tələbələrin istək və arzularına cavab verən bəzi mədəni-kütləvi tədbirlər təxirə salınıb. Məqsəd tələbələrimizi və əməkdaşlarımızı yoluxmadan mümkün qədər qorumaqdır".

**Mənsur ƏLƏKBƏRLİ**

Tamerlan Əliyev-100




# Görkəmli alimin yubileyinə həsr olunmuş beynəlxalq konqres keçirilib

## Professor Gəray Gəraybəyli: Tamerlan Əliyevin elmi irsi, xeyirxah əməlləri yaşayacaq və daim tibb sahəsinin inkişafı üçün təməl rolunu oynayacaq

**Oktyabrın 6-da görkəmli alim, Əməkdar elm xadimi, Azərbaycan tibb elminin və səhiyyəsinin parlaq nümayəndələrindən biri, tibb elmləri doktoru, professor Tamerlan Əziz oğlu Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konqresin açılış mərasimi keçirilib. Mərasimdən öncə tədbir iştirakçıları alimin məzarını ziyarət edərək gül dəstələri qoyublar.**






Azərbaycan Tibb Universitetinin böyük akt zalında işinə başlayan “Təbabətin aktual problemləri-2021” beynəlxalq elmi-praktik konqresində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Səhiyyə nazirinin birinci müavini, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev konqresi giriş sözü ilə açaraq, görkəmli alimin 100 illik xatirə yubileyinin vaxtilə onun atası, böyük dövlət xadimi Əziz Əliyevin rəhbərlik etdiyi doğma universitetin divarları arasında qeyd olunmasını əlamətdar hadisə kimi dəyərləndirib.

Tamerlan Əliyevin alim, həkim, pedaqoq və insan kimi keçdiyi şərəfli ömür yolunun hər bir alim və həkim üçün müdriklik məktəbi olduğunu deyən Teymur Musayev onun ömrünün sonunacan öz gücünü və bacarıqlarını doğma Azərbaycana xidmətə sərf etdiyini, xalqın rifahı naminə çalışdığını diqqətə çatdırıb. Bildirib ki, atasının yolunu davam etdirən T.Əliyev 1944-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunu (ADTİ) bitirdikdən sonra bir müddət Azərbaycan Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda, sonradan Tibb İnstitutunun Mikrobiologiya kafedrasında çalışıb: “1945-ci ildən isə əmək fəaliyyətini ADTİ-nin Fakültə terapiyası kafedrası (indiki Daxili xəstəliklər kafedrası) ilə bağlayıb. Tamerlan Əliyev 1945-1948-ci illərdə Fakültə terapiyası kafedrasının ordinatoru, 1948-1969-cu illərdə assistenti, 1969-cu ildə isə dosenti vəzifələrində çalışmış, 1970-1990-cı illərdə kafedranın professoru olmuş və kafedraya rəhbərlik etmiş, 1990-cı ildən ömrünün sonuna qədər kafedranın professoru vəzifəsində işləmişdir”.

O, Tamerlan Əliyevin ömrünün son günlərinədək öz prinsiplərinə, xalqın rifahı naminə fədakar fəaliyyətə sadiq qaldığını bildirib: “Tamerlan Əliyev unikal təbii ehtiyatlarla – mineral sular, palçıq vulkanları, Naftalan nefti, duz mağaraları və digər müalicəvi mənbələrlə zəngin olan Azərbaycanda kurort müalicəsinin inkişaf perspektivlərinə böyük diqqət yetirirdi”.

Çıxışının sonunda T.Musayev görkəmli alimin xatirəsini yad etməyin ən gözəl yolu olan beynəlxalq konqresin işinə uğurlar arzulayıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxışında qeyd edib ki, hər kəs dünyaya bir dəfə gəlir və həyat tərzi, insanlara münasibəti, gördüyü işlər və əxlaqı ilə öz həyat kitabını yazır. Məhz bu keyfiyyətlərinə görə bəzi insanlar həyatdan köçən kimi unudulur, bəziləri isə əsrlər boyu yaddaşlara həkk olunur, xatirələrdə yaşayır. Belə şəxsiyyətlərdən biri də 100 illik yubileyi qeyd olunan böyük alim Tamerlan Əliyevdir.

Professor G.Gəraybəyli 1921-ci il oktyabrın 3-də Naxçıvan Muxtar Respublikasının Şahtaxtı kəndində böyük dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açan Tamerlan Əliyevin hələ uşaqlıq illərindən alicənablıq, həssaslıq və ziyalılıq ruhunda tərbiyə aldığını diqqətə çatdırıb. Çıxışında T.Əliyevin İkinci dünya müharibəsi illərindəki fəaliyyətinə də toxunan natiq, onun hərbi hospitalda işləyərək, yaralı əsgərlərə tibb xidməti göstərdiyini söyləyib.



Rektor görkəmli alimin çoxşaxəli elmi tədqiqatlarına da geniş yer ayıraraq, respublikamızda əsası Fakültə terapiyası kafedrasının professorları K.Yeqorov və İ.Orucov tərəfindən qoyulmuş tibbi problem - endokrinologiya sahəsində onun apardığı elmi tədqiqatların əhəmiyyətindən danışıb. Eyni zamanda Tamerlan Əliyevin respublikamızda endokrinologiya və kardiologiya elminin inkişafına təkan verdiyini, 10 ilə yaxın müddətdə Respublika Endokrinologiya Cəmiyyətinin əvəzsiz sədri olduğunu xatırladıb. Vurğulayıb ki, professor Tamerlan Əliyevin şəxsi iştirakı və səyi nəticəsində 1975-ci ildə 4 saylı Klinik Xəstəxananın bazasında 90 çarpayılıq endokrinoloji şöbə yaradılıb: “O vaxtdan bəri bu şöbədə Fakültə terapiyası kafedrasının əməkdaşları şəkərli diabeti olan xəstələrin mərkəzləşdirilmiş formada müalicə və profilaktikasına dair əsaslı elmi işlər aparırlar. Onun Fakültə terapiyası kafedrasına rəhbərlik etdiyi dövrdə Bakı şəhərinin müxtəlif klinika və poliklinikalarından, respublikanın rayonlarından və hətta bəzi xarici ölkələrdən (İran, Suriya, Türkiyə) bu kafedraya endokrinologiya sahəsində təkmilləşmə məqsədilə həkimlər ezam edilirdi”.

T.Əliyevin milli kadrların hazırlanmasında və elmin inkişafında xüsusi rolunu da önə çəkən professor G.Gəraybəyli qeyd edib ki, onun rəhbərliyi altında 25 elmlər namizədi və 5 elmlər doktoru hazırlanıb və onlar hazırda müxtəlif kafedraların rəhbərləri, endokrinologiya və kardiologiya sahəsində aparıcı mütəxəssislərdir.

Professor Tamerlan Əliyev 250-dən artıq elmi əsərin, o cümlədən 12 monoqrafiya və 1 dərsliyin müəllifidir. Bu monoqrafiyaların bir neçəsi xalq təsərrüfatı nailiyyətləri sərgisinin qızıl medalı ilə təltif edilib. Alimin “Endokrinologiya” əsəri bu sahədə Azərbaycan dilində yazılmış ilk dərslik idi.

Rektor əlavə edib ki, professor Tamerlan Əliyev Azərbaycanda tibb elminin və səhiyyənin inkişafındakı xidmətlərinə görə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib, orden və medallarla, fəxri fərmanlarla təltif olunub. Xatırladıb ki, T.Əliyev 1981-ci ildə “Klinik laborator-diaqnostik tədqiqat üsulları” monoqrafiyasına görə, Respublikanın Dövlət Mükafatına layiq görülüb.

Professor T.Əliyevin Azərbaycanın hüdudlarından kənarda da yaxşı tanındığını, bir çox beynəlxalq miqyaslı konfrans və simpoziumlarda ölkəmizi layiqincə təmsil etdiyini söyləyən G.Gəraybəyli onun insani xüsusiyyətlərini ayrıca vurğulayıb: “Tamerlan müəllim olduqca sadə, müdrik, qayğıkeş və xoş xasiyyətli insan idi. Həmişə ona müraciət edənləri səbrlə dinləyər, ehtiyacı olanlara təmənnasız yardım edərdi. Son dərəcə təvazökar, obyektiv, həssas qəlbli, yüksək mədəni səviyyəyə malik bir insan olan Tamerlan Əliyev daim gəncləri elmə həvəsləndirərdi”.

ATU-nun rektoru əminliklə bildirib ki, Tamerlan Əliyevin bizlərə qoyub getdiyi elmi irsi, xeyirxah əməlləri yaşayır və yaşayacaq, daim tibb sahəsinin inkişafı üçün təməl rolunu oynayacaq, yeni uğurların bünövrəsi olacaq.

Daha sonra Tamerlan Əliyevə həsr olunmuş sənədli film nümayiş olunub.

Prezident Administrasiyasının şöbə müdiri Fərəh Əliyeva, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, ATU-nun Daxili xəstəliklər kafedrasının müdiri, professor Rafiq Məmmədhəsənov Tamerlan Əliyevin həyat və fəaliyyəti ilə bağlı fikirlərini, xatirələrini tədbir iştirakçıları ilə bölüşüblər. Onun səmimi, təvazökar, sadəqətli insan olduğunu qeyd edib, tibb elminin müxtəlif sahələrində tədqiqatlar apardığını, nəinki ölkəmizdə, xaricdə də tədqiqatçı alim kimi tanındığını diqqətə çatdırıblar. Çıxış edənlər professorun pedaqoq kimi auditoriyalarda maraqlı mühazirələr oxuduğunu, eləcə də xəstələrə diqqət və qayğı ilə yanaşdığını bildiriblər.

Daha sonra Türkiyə Qazi Universitetinin rektoru, professor Musa Yıldız və Rusiya Elmlər Akademiyasının akademiki Anatoli Martınovun videomüraciətləri dinlənilib.

Görkəmli alimin ailə üzvləri adından çıxış edən akademik Cəmil Əliyev qardaşının xatirəsinə göstərilən böyük ehtirama görə tədbirin təşkilatçıları və iştirakçılarına təşəkkürünü bildirib.

ATU-nun III Daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanovun dünya şöhrətli alimin xatirəsinə həsr olunmuş “Ləyaqət timsalı” kitabı konqres iştirakçılarına paylanılıb. Bununla da beynəlxalq konqresin açılış mərasimi başa çatıb.

Qeyd edək ki, 11 xarici universitet və cəmiyyətlərdən nümayəndələrin qatıldığı konqres öz işini üç gün müddətində davam etdirib.

Konqresin açılış günündə keçirilən I panel sessiyasında ATU-nun Endokrinologiya kafedrasının müdiri, professor Rafiq Məmmədhəsənov, professor Tamfira Əliyeva, dosentlər Səbinə Məşədiyeva-Bayramova, İradə Vəliyeva, Vəfa Əliyeva, assistentlər Könül İsmayılova, Şəlalə İsmayılova, Zemfira Cəfərova, Rəna Tariverdiyeva, Samaya Əliyeva, Xeyransa Hüseynzadə, Günel Əliyeva və Tədris Terapevtik Klinikanın ordinatoru Ayan Məmmədova “Endokrinolologiyada müasir problemlər” bölümü üzrə məruzələrlə çıxış ediblər.

Oktyabrın 7-də konqresin II sessiyası ATU-nun Ümumi cərrahiyyə kafedrasının professoru Məhəmməd Kərimovun moderatorluğu ilə aparılıb. M.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin kardiocərrahiyyə şöbəsinin müdiri, professor Fazil Abbasov, Türkiyənin Gülhanə Təhsil və Araşdırma Xəstəxanasının ürək-damar cərrahı, professor Ufuk Demirkılıç, professorlar Rəşad Mahmudov, Kamran Musayev və Anar Əmrah ürək və damar cərrahiyyəsinin bu günündən və gələcəyindən danışıblar.

Həmin gün professorlar Vəfa Pənahian, Nazim Hüseynov və dosentlər Cabbar Cəlilov, Akif Əfəndiyevin sədrliyi ilə “Qulaq və burun xəstəliklərinin insanın həyat keyfiyyətinə təsiri” başlığı altında müxtəlif məruzələr də dinlənilib.

Konqresin sonuncu günü - oktyabrın 8-də isə professorlar Nailə Sultanova, Surxay Musayev, İbrahim İsayev və Hüseyn Qabulovun sədrliyi ilə “Pediatriyada proqress və perspektivlər” mövzusunda aktual problemlər müzakirəyə çıxarılıb. Panel sessiyalarının ayrı-ayrı bölümlərində Azərbaycan, Türkiyə, Rusiya və Özbəkistan mütəxəssislərinin məruzələri konqres iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Geniş diskussiya şəraitində keçən panel sessiyalarında məruzəçilər onlara ünvanlanan çoxsaylı sualları da cavablandırıblar.

**Arif MƏMMƏDLİ**

# London universitetinin professoru ilə müzakirələr aparılıb



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli İngiltərənin London College Universitetinin tibb bölməsinin nümayəndəsi, professor Michael Paul Loosemore ilə görüşüb.**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) nümayəndə heyəti ilə birlikdə ATU-da qonaq olan professor M.P.Loosemore Böyük Britaniyada tibb təhsili sahəsində tətbiq olunan yeniliklər, mövcud

### Konfransın işinə həm canlı, həm də onlayn formatda ATU-nun alimləri də qatılıb

layihələr haqqında məlumat verib.

ADBTİA-nın nümayəndə heyətinin rəhbəri, akademiyanın İxtisasartırma proqramının direktoru Təranə Əhmədova təmsil etdiyi universitetdə tətbiq olunan yeni proqram haqqında danışıb. İki illik proqramın rezidentlər üçün nəzərdə tutulduğunu bildirən qonaq ATU məzunlarının da bu imkandan yararlana biləcəyini deyib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu proqramın tətbiqi ilə bağlı fikirlərini bölüşüb. Görüşdə, həmçinin layihə çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub. Proqramın yaratdığı imkanlar barədə tələbələr üçün təqdimat keçirilməsinə dair ilkin razılıq əldə edilib.

Qeyd edək ki, görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov da iştirak edirdilər.

**Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində şəhid Turqut Xəlilbəylinin valideynləri ilə görüş keçirilib. Qeyd edək ki, fakültənin nəzdində yerləşən kitabxanaya Turqut Xəlilbəylinin adı verilib. Kitabxanada, həmçinin şəhid məzunlarımıza həsr olunmuş guşələr yaradılıb. T.Xəlilbəylinin şəxsi kitabları onun guşəsində yerləşdirilib.**




# Valideynləri Turqut Xəlilbəylinin adını daşıyan kitabxana ilə tanış olublar



Fakültənin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov bildirib ki, şəhidimizin adını daşıyan bu kitabxana Vətən müharibəsindəki şanlı zəfərimizi və onu canı-qanı bahasına əldə edən qəhrəman oğullarımızı gələcək nəsil tələbələrimizə daim xatırladacaq.

Şəhidin atası Nadir Hüseynov çıxış edərək, Turqutun xatirəsinin əbədiləşdirilməsinə görə təşəkkür edib.

Sonra T.Xəlilbəylinin ailə üzvləri kitabxana ilə tanış olublar.

Qeyd edək ki, Hərbi tibb fakültəsinin nəzdində yerləşən bütün mühazirə zallarına şəhid məzunların adları verilib.

# Payızın dərsləri: şagird və tələbələr üçün zəruri məsləhətlər



## İbrahim Əhmədov: Səhər yeməyində yağ-pendir, yumurtadan daha vacib olan isti sıyıqlardır

## Şəhla Balayeva: Tənəffüslərin müddəti artırılmalı, məktəbli çantasının çəkisi azaldılmalıdır



**Artıq payız fəslidir. Eyni zamanda, yeni tədris ilinə start verilib. Uşaqlar hər səhər tezdən təhsil aldıqları orta məktəbə, tələbələr isə ali məktəblərə tələsirlər. Amma bəzən şagirdlər və tələbələr öz sağlamlıqları üçün vacib olan amillərə və qaydalara riayət etmirlər. Bu da onların immunitetlərinin aşağı düşməsinə, xəstələnmələrinə səbəb olur. Bunun baş verməməsi üçün onlar nələrə fikir verməli, nələrə riayət etməlidirlər? Gəlin, mütəxəssisləri dinləyək.**

**Azərbaycan Tibb Universitetinin Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İbrahim Əhmədovun** fikirləri olduqca maraqlıdır: "İnsanın yaşaması, öz sağlamlığını qoruması və möhkəmləndirməsi üçün sağlam qidalanmanın çox böyük əhəmiyyəti var. Amma qidanın hazırlanması, saxlanması, istehlakı qaydalarına riayət olunmalıdır ki, ondan istifadə etdikdə orqanizmə faydası olsun. Artıq payız mövsümü başlayıb. Soyuq hava şəraiti xroniki xəstəlikləri, müqaviməti zəif olan insanlara mənfi təsir göstərir. Bu fəsildə yuxarı tənəffüs orqanlarının iltihabi xəstəlikləri kifayət qədər artır, epidemiya şəklini ala bilir. Xəstəliklərdən uzaq olmaq üçün geyimimizə və sağlam qidalanmamıza fikir verməliyik ki, orqanizmimizin müqavimətini artıra və onu qoruyub saxlaya bilək".

Kafedra müdiri qidalanma zamanı rejimin gözlənilməsini vacib amillərdən biri kimi diqqətimizə çatdırdı. Bildirdi ki, hər kəs şəraitə uyğun qidalanma vərdişlərinə əməl etməlidir. İstər işə gedən, istər təhsil alan - evdən çıxmamış, mütləq qidalanmalıdır.

Qaydalara görə, insan çəkisindən, fiziki işin ağırlığından asılı olaraq, gün ərzində 3-4 dəfə yemək yeməlidir. Normadan artıq və az qidalanma insanlarda müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Normadan az qidalanma qastrit, mədə xorası ilə nəticələnir, onikibarmaq bağırsaqda problemlər yaradır. Normadan çox qidalanma isə bədəndə çəkinin artmasına, piylənmə, şəkərli diabet, arterial hipertoniya, ürəyin və beynin qan dövranının pozulmasına və s. xəstəliklərin yaranmasına səbəb olur.

İ.Əhmədovun sözlərinə görə, bəzən insanlar elə bilirlər ki, ağır işdə işləyənlər gün ərzində 4 dəfə, zehni işlə məşğul olanlar isə 3 dəfə qidalanmalıdır: "Amma əksinədir. Zehni işdə işləyənlər çox vaxt oturaq həyat tərzi keçirdiyindən, onlarda fiziki işlərdə çalışanlara nisbətən həzm prosesi, maddələr mübadiləsi ləng gedir. Ona görə onlara az olmaq şərti ilə gündə 4 dəfə, fiziki işlə məşğul olanlar isə 3 dəfə qidalanmalıdır. Qidalanmalar hər gün eyni vaxtda olmalıdır ki, rejimə düşsün.

Səhər tezdən əksər hallarda süfrəmizdə çay, yağ-pendir, yumurta və ya bal olur. Bu yeməklərlə kifayətlənirik. Əslində fizioloji sağlam qidalanmaya görə, səhər mütləq isti yeməklər yeyilməlidir. Səhər yediklərimizin yanında sıyıqlar olmalı, orqanizm kalorili yeməklərlə zənginləşməlidir. Nahar vaxtı da süfrəmiz zəngin olmalı, meyvə-tərəvəz salatlarına yer verilməlidir. Axşam isə yüngül yeməklər üstünlük təşkil etməli, ağartı məhsulları yeyilməlidir".

Kafedra müdiri tələbələrimizin payız mövsümünə uyğun geyimlərindən də söhbət açdı. Bildirdi ki, bəzən gənclərimiz belə düşünürlər ki, orqanizmləri möhkəmdir, ona görə də xəstələnə bilməzlər: "Nəticədə, adətən tələbələr mövsümə uyğun olmayan nazik paltarlar geyinirlər. Onlara tərkibində yun və pambıq olan geyimlərə üstünlük vermələrini, qalın geyinmələrini tövsiyə edirəm".

**ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Şəhla Balayeva** qeyd etdi ki, uşaqların sağlamlığı onların düşdüyü mühitdən, aldığı tərbiyədən çox asılıdır: "Bu məsələdə əsas yük uşaqların valideynlərinin və onların tərbiyə aldığı təhsil müəssisəsinin öhdəsinə düşür. Dövlətimiz uşaqların sağlamlığının qorunması üçün lazımi proqramlar həyata keçirir. Onların sağlam böyüməsi üçün dispanserizasiyalarına fikir verilir. Mütəmadi olaraq tibbi yoxlamalardan keçirilirlər. Bu, onlarda mümkün patoloji dəyişiklikləri, xəstəlikləri aşkar etməyə kömək edir və gələcəkdə yarana biləcək xəstəliklərin qarşısının vaxtında alınmasına yardımçı olur. Hər məktəbdə tibb işçisi fəaliyyət göstərir. Onlar uşaqların dispanserizasiyası ilə məşğul olurlar".

Ş.Balayeva deyir ki, normaya görə sinif otağında bir şagirdə 2.5 kv.m sahə düşür. Uşaqların sayı isə 24-dən çox olmamalıdır: "Amma pandemiya dövründə bu göstəricilər yarıyadək azaldıldı. Hazırkı tədris ilində isə sinif otağının doldurulması 70 faizdən çox olmamalıdır. Artıq doldurularsa, sağlamlığa mənfi təsir göstərə bilər. Uşaqlarda gigiyenik vərdişlər tərbiyə edilməlidir. Xüsusilə əllərin yuyulmasına diqqət artırılmalıdır. Onlar səhər oyandıqdan, heyvanlarla təmasda olduqdan, müxtəlif oyunlardan və yeməkdən əvvəl, sonra mütləq əllərini yumalıdır".

Müsahibimiz şagirdlərin məktəblərdə qidalanması məsələsinə də toxundu: "Dövlət tərəfindən məktəblərdə satışına icazə verilən məhsulların siyahısı vacibdir. Onun üçün ki, dietoloqlarımız tərəfindən tərtib olunmuş menyuya əsasən, dadlı və keyfiyyətli yeməklər hazırlanır. Uşaq 6-7 saat məktəbdə qalırsa, mütləq ona isti yemək verilməsi məsləhətdir. Xüsusilə soyuq aylarda səhər isti yemək yeyib məktəbə getmək vacibdir. Kiçik yaşlı məktəblilər 2-ci, böyük yaşlı məktəblilər 3-cü dərsdən sonra qidalanmalıdır. Yaxşı qidalanma olmadıqda, onların dərsi mənimsəmə qabiliyyəti aşağı düşür. Səhər yeməyi yeməyən, günorta qidalanmayan uşaqların fiziki inkişafında problem yaranır. Məktəblərdə ən az tənəffüs vaxtı 10, böyük tənəffüs vaxtı isə 20-30 dəqiqə olmalıdır. Amma bizdə tənəffüs müddətləri azdır. Bu da şagirdlərin normal qidalanmasına və uzun müddətli oturaq vəziyyətdən yaranan statik gərginliklərini atmasına mane olur. Hətta bəzi məktəblərdə nəzərdə tutulan tənəffüsü də uşaqlara çox görürlər. Müəllimlər onlara sinif otaqlarından çıxmağa icazə vermirlər. Təsəvvür edin, uşaq məktəbdə səhər saat 8-dən 2-dək oturaq vəziyyətdə qalır, yerindən tərpənmir. Bu, uşaqların hüquqlarının kobud şəkildə pozulmasıdır və onların sağlamlıqlarına, normal inkişafına olduqca mənfi təsir göstərir".

Ş.Balayeva bəzi təkliflər də irəli sürdü: "Vaxtilə müəllim hazırlığı proqramına "Məktəb gigiyenası" fənni də salınmışdı. Universitetlərdə gələcək müəllimlərə tədris zamanı uşaqlara mənfi təsir göstərən amillər və onlardan qorunma yolları ilə bağlı məlumat verilirdi. Çox təəssüf ki, həmin fənn tədrisdən çıxarılıb. Ona görə də yeni müəllimlər uşaqların sağlamlığının necə qorunması ilə bağlı məlumatsızdırlar. Həmin fəndə tədrisin, tənəffüslərin düzgün təşkili, siniflərin komplektləşdirilməsi, uşaqların qidalanması, fiziki tərbiyəsi, inkişafı və s. barədə mühüm məlumatlar verilirdi. Çox istərdim ki, həmin fənn proqrama yenidən salınsın. Məsələn, valideynlər həmişə çantaların ağırlığından şikayət edirlər. Haqlıdırlar. Mütəxəssislərin fikrincə, şagirdin götürdüyü yük onun çəkisinin 10-15 faizindən artıq olmamalıdır. Amma bu şərt çox vaxt pozulur. Biz yükün, dərsliklərin kütləsinin azaldılması üçün Təhsil Nazirliyi qarşısında təkliflərlə çıxış etmişik. Məktəblərdə aparılan araşdırmalar ürəkaçan deyil. Orta məktəbi bitirənlərin 45 faizinin qamətində əyrilik, 50 faizinin görmə qabiliyyətində problemlər yaranıb".

**Qabil ABDULLAYEV**

# “Müasir dünyada yaxşı iş tapmaqda universitetin reytinqi xüsusi rol oynayır”

## Prorektor Zülfüqar Musabəyov akkreditasiyaya həsr olunmuş beynəlxalq forumda çıxış edib

**“Hər bir universitetin akkreditasiyası mühüm məsələ olub, təhsilin yüksək keyfiyyətini təmin etmək məqsədi daşıyır. Akkreditasiya universitetin fəaliyyətinə verilən qiymətlə yanaşı, həm də onun gələcək inkişafı üçün zəmin yaradır”. Bu fikirləri Azərbaycan Tibb Universitetinin Təlim-tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov “Ali təhsilin keyfiyyətinin təmin olunması: dünya tendensiyaları və regional aspektlər” mövzusunda 5-ci Mərkəzi Asiya Beynəlxalq Forumunun onlayn tədbirində iştirakı zamanı bildirib.**




Prorektor Z.Musabəyov toplantıda “Azərbaycan Tibb Universitetinin tədrisində dünya tendensiyalarının regional aspektləri” mövzusunda çıxış edib. Qeyd edib ki, müasir dünyada iş axtaranların yaxşı iş tapmasında onların bitirdiyi universitetin reytinqi, nüfuzu və rəqabətə davamlılığı xüsusi önəm kəsb edir: “Ali məktəbin tanınmasında isə beynəlxalq akkreditasiya mühüm rol oynayır. Bu proseduru ali məktəblərin öz proqramlarını təkmilləşdirməsi üçün adekvat qiymətləndirmə kimi qəbul etmək olar. Beynəlxalq akkreditasiya könüllü olsa da, dünya bazarında mövqelərini möhkəmlətməyə, öz işinə kənardan baxmağa imkan yaradır”.

Z.Musabəyov forum iştirakçılarına universitetin tarixi, fəaliyyəti, strukturu və idarəetmə qaydaları haqqında məlumat verib. Həmçinin Azərbaycanda qəbul imtahanları, ATU-ya qəbul qaydaları, xarici tələbələrin qəbul prosedurundakı yeniliklər və digər maraqlı məqamları da diqqətə çatdırıb. Bildirib ki, ATU-da təhsil bakalavriat, magistratura, rezidentura və doktorantura səviyyəsində aparılır. Üç dildə təhsil verən Tibb Universitetində hazırda 7 minə yaxın tələbə təhsil alır ki, onların da 2200-dən çoxu xaricilərdir. Z.Musabəyov ATU-nun nəzdində fəaliyyət göstərən klinikalar, kitabxana və oxu zalları, o cümlədən tələbə yataqxanaları və s. haqqında da danışıb.

Prorektor çıxışında universitetin beynəlxalq əlaqələrinə xüsusi yer ayırıb: “Universitetimiz Azərbaycandakı xarici diplomatik nümayəndəliklərlə əlaqələr qurmaq və inkişaf etdirmək siyasəti yürüdür. ATU tibb təhsili sahəsində aparıcı universitet ilə həm ikitərəfli, həm də çoxtərəfli müqavilələr bağlayır, beynəlxalq konfranslar, simpoziumlar və seminarlar təşkil edir. Son üç ildə biz 35 beynəlxalq saziş imzalamışıq. Tərəfdaşlarımız arasında Türkiyə, Rusiya, Portuqaliya, Moldova, Almaniya, Çin, İsrail,



Ukrayna, Qazaxıstan, Belarus və digər ölkələrin aparıcı tibb məktəbləri, klinikalar, laboratoriyalar, elmi araşdırma mərkəzləri var”.

Dosent Zülfüqar Musabəyov çıxışının sonunda təmsil etdiyi ali məktəbin qarşısında duran hədəflərdən söz açıb. Bildirib ki, əsas məqsəd yalnız Azərbaycanda deyil, həm də xaricdə tanınan yüksək ixtisaslı kadrlar yetişdirməkdir. “Əminəm ki, sıx əməkdaşlıq universitetimizin yeni bir təhsil platformasına uğurla keçməsinə kömək edəcək” – deyən Z.Musabəyov forum iştirakçılarına uğurlar arzulayıb.

Qeyd edək ki, “Ali təhsilin keyfiyyətinin təmin olunması: dünya tendensiyaları və regional aspektlər” mövzusunda 5-ci Mərkəzi Asiya Beynəlxalq Forumu Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin (IAAR) 10 illiyinə həsr olunub.

---

# “Göstərir, öyrədir, sonra da yoxlayırıq”

## ATU-nun Tədris Treninq Mərkəzi tələbələrin tədrisi praktik cəhətdən keyfiyyətli mənimsəməsinə yardım edir



**Azərbaycan Tibb Universiteti tələbələrinin tədrisi praktik cəhətdən keyfiyyətli şəkildə mənimsəməsi, klinik bacarıqlarını daha da artırması məqsədi ilə Tədris Treninq Mərkəzi fəaliyyət göstərir. Mərkəzə 5 ildən çoxdur ki, tibb üzrə fəlsəfə doktoru, dosent Elmar Şərifov rəhbərlik edir.**

E.Şərifov bizimlə söhbətində Mərkəzin fəaliyyəti və tələbələrimiz üçün əhəmiyyətindən söhbət açdı: “Universitetimiz tərəfindən tələbələrimizə bəzi klinik bacarıqların öyrədilməsi üçün 2016-cı ildə proqram tərtib olunmuşdu. Proqram həmin vaxt 1-ci kurslar üçün nəzərdə tutulmuşdu. İllər keçdikcə, proqramın əhatə dairəsi daha da genişləndi, dərslərin sayı çoxaldıldı və klinik bacarıqların sayı artırıldı. Demək olar ki, hər il proqramlarda təkmilləşdirmə işləri aparılıb. Və indi artıq iş o yerə çatıb ki, Müalicə-profilaktika fakültəsini bitirən tələbələr Dövlət Attestasiya Komissiyası tərəfindən təşkil olunan Dövlət İmtahanında klinik bacarıqlardan imtahan verirlər. Əvvəlki illərdə fənlər üzrə - ginekologiya, cərrahiyyə və terapiya üzrə 5 bacarıq müəyyən edilmişdirsə, sonrakı illərdə sayı artırılaraq 10-a çatdırıldı. Bir neçə il idi ki, Mərkəzdə 1-ci kurslarda “İlk tibbi yardımın əsasları” fənnindən bacarıqlar öyrədilir, semestr ərzində 10 bacarıq tədris olunurdu. Amma bu il proqramda yenilənmələr olub”.

Yeniliklərə diqqətimizi çəkən E.Şərifov klinik bacarıqların öyrədilməsinin 1-ci kursla məhdudlaşmadığını, 2-ci kursun tələbələrinə də şamil olunduğunu qeyd etdi. Proqramların Türkiyənin nüfuzlu universitetlərindən hesab olunan Ege Universitetinin proqramına uyğunlaşdırıldığını bildirdi. Onu da qeyd etdi ki, klinik bacarıqlar üzrə dərsləri Ümumi cərrahiyyə kafedrasının əməkdaşları keçir: “Otaqlarımız klinik bacarıqlara uyğun lazımi avadanlıqlara təmin olunub. Eyni zamanda, avadanlıqlarımıza uyğun proqramlar tərtib edilib. Məqsəd budur ki, onlar bir-birini tamamlasın və nəticədə tələbələrimizin qavraması daha da effektli olsun”.

Tədris Treninq Mərkəzinin rəhbəri pandemik şəraitə görə 1-ci kursda təhsil alanlara əllərin dezinfeksiyası, yuyulması, əlcəklərin, steril geyimlərin geyinilməsi, septik və antiseptik qaydalara necə əməl olunması yollarının öyrədildiyini də bildirdi: “Bir semestr ərzində bu istiqamətdə nəzəri biliklər öyrədilir, videoçarxlar nümayiş olunur, bacarıqlar praktik təlbiq edilir. Amma İctimai səhiyyə fakültəsinin 1-ci kurs tələbələri üçün hələ ki köhnə qayda qalır. Dəyişikliklər əsasən Müalicə-profilaktika fakültələri üçün edilib. 2-ci kursda isə 1-ci semestr boyu “Təməl həyat dəstəyi” adlı bir prosedur həyata keçirilir. Bu, dünyada qəbul olunmuş bir prosedurdur. Bu prosedurda zərərçəkənlərə ilkin tibbi yardım göstərilir. Ürək dayanıb və ya tənəffüs yolları tutulubsa, zərərçəkənə necə yardım olunması göstərilir”.





E.Şərifovun sözlərinə görə, ürəyin qapalı masajı, süni tənəffüsün verilməsi, onun adekvatlığının yoxlanılması, təcili yardımın çağırılması, təcili yardım gələnədək xəstəyə dəstəkləyici tədbirlərin göstərilməsi proqramı 2-ci kurs tələbələri üçün nəzərdə tutulub: “Nəzəri qaydalar, videoçarxlar və əyani multimedia vasitələri ilə nümayişlərin ardınca öyrədilənlər praktik vərdiş halında hər bir tələbə tərəfindən təkrarlanır və onun qiymətləndirilməsi, tələbələrdə biliyin necə qavranılmasının müqayisəsi aparılır. İmkanlarımız 5 dərs otağına çatır. Qruplarımız artıq tam şəkildə, klassik qaydada treninqlərdə iştirak edir. Yuxarı kursların tələbələri də klinik bacarıqları öyrənmək üçün gəlirlər. Hər birinin özünəməxsus proqramı var. 3-cü kurs tələbələri Ümumi cərrahiyyə fənni üzrə klinik bacarıqları öyrənməyə gəlirlər. Mərkəzdə, həmçinin 3-cü kurs tələbələrinə tikişlərin qoyulması, sökülməsi, kəsiyin aparılması, cərrahi düyünlərin qoyulması, növləri, əzələdaxili, venadaxili inyeksiyaların texnologiyaları izah edilir. Prosedurlar klinik protokollar əsasında aparılır. 4-cü və 5-ci kurs tələbələrinə isə, təkcə cərrahi deyil, həm də mamalıq və ginekologiya vərdişləri öyrədilir. Dərs cədvəlləri tutulub, hər bir qrupun Mərkəzdə dərs keçmə vaxtı fiksiya olunub. Cədvəllər kafedralara paylanır, cədvələ uyğun olaraq qruplar iştirak edir və onlara klinik bacarıqlar öyrədilir”.

E.Şərifov Mərkəzdəki müasir avadanlıqlardan da söz açdı, onların funksiyaları barədə məlumat verdi. Həmin avadanlıqlar vasitəsilə tələbələrimizə əl vərdişlərinin öyrədildiyini qeyd etdi: “Burada tələbələrə laparaskopla necə davranmağın incəlikləri izah edilir və onlarda vərdiş halına gətirilir. Yəni müxtəlif əşyalar monitorlar vasitəsi ilə müşayiət edilməklə götürülür, tikiş qoyulur, göz koordinasiyalarına uyğunlaşdırılır”.

Çatışmazlıqlar haqda danışan Mərkəzin rəhbəri təlimlər üçün otaqların sayının az olduğunu bildirdi: “Biz istərdik ki, otaqlarımızın sayı çox olsun, hər qrupun bacarıq saatlarının sayını çoxalda bilək. Saatlarımızın sayı çox olsa, daha çox effektini görə bilərik. Otaq sarıdan problemimiz olduğundan, dərs saatlarını tənzimləmək bizə çətinlik yaradır. Eləcə də, avadanlıqlarımız da azdır. Təsəvvür edin, Müalicə-profilaktika fakültələrində 600-ə yaxın, bir kursda isə 60 qrup var. Bir neçə avadanlıq və 6-7 otaqla təlimləri həyata keçirmək, tənzimləmə işlərini aparmaq elə də asan olmur. Düzdür, bütün qruplara maksimum bərabər şərait yaradır, təlimlərin həyata keçirilməsi üçün əlimizdən gələni edirik. Amma çox istərdik ki, gələcəkdə avadanlıq və otaqlarımızın sayı artırılsın”.

Şəhid məzunlarımız

# Torpağı Vətən edən gülərüz oğlan

## Turqut Xəlilbəyli həyatı bahasına olsa da, həkim peşəsinə sədaqət andını pozmadı

"Turqut şəhid olandan sonra qohum-əqrəbadan, dost-tanışlardan mənə irad tutanlar oldu ki, sən niyə ona imkan verdin, ön cəbhəyə getdi. Əgər onu danlasaydın, mane olsaydın, korpus komandirinə ərizə yazmağına imkan verməsəydin, arxa cəbhədə qalar, xidmət edər, şəhid olmazdı. Mən onların bu fikirlərini təəccüblə qarşıladım. Mənə məsləhət verənlərə sözüm o oldu ki, Turqut nə qəbahətli iş görmüşdü ki, onu danlayam, mane olaydım. Torpaqlarımızı yağı düşmənin tapdağından azad etmək, Vətənin müdafiəsinə qalxmaq nə vaxtdan qəbahət hesab olunub ki, onu bu yoldan çəkindirəydim... İşğal olunmuş torpaqları heç kim ovcunun içərisində gətirib bizə verəsi deyildi. Vətən tək mənim, Turqutun Vətəni deyil, hamımızın Vətənidir. Müharibə isə şəhidsiz olmur. Turqutun tutduğu və getdiyi yol müqəddəs və fəxr olunmalı bir yoldur. Bu yolun sonu oğlum üçün şəhidlik zirvəsinə ucalmaqla nəticələndi".

Ürəkləri dağlayan bu sözləri Vətən müharibəsində yaralıların həyatını xilas edərkən döyüş meydanında şəhid olmuş ilk hərbi həkim, leytenant Turqut Xəlilbəylinin atası Nadir Hüseynovdan eşidirik. Onu həyəcansız, sakit dinləmək mümkün deyil. Sözlərindən, danışığından Vətənə olan sonsuz sevgini aşkar hiss edirsən. Və dərhal da fikirləşirsən ki, Vətənə bu hisslərlə, bu sevgi ilə yanaşan bir kişinin oğlu da onun kimi olmalı idi...

Şəhid atasının səsindəki kövrəklik mənə də keçir. Araya çökən sükutdan sonra məchul bir nöqtəyə gözlərini zilləyib, titrək səslə söhbətinə davam edir: "Turqut uşaqlıqdan çox mehriban, ünsiyyətcil idi. Onu tanıyanlar, onunla münasibətdə olanlar xətrini çox istəyirdi. Hələ uşaq vaxtından hərbçi olmaq könlündən keçirdi. Anası isə onu həkim görmək istəyirdi. Anasının xətrinə də dəymək istəmirdi. Buna görə ixtisas seçməkdə çətinlik çəkirdi. Nə etsin ki, anasının da xətri xoş olsun.

Çingiz adlı bir yaxın qohumumuz var. O da hərbi həkim idi. Turqutun hərbçi olmaq arzusunu bilincə, məsləhət gördü ki, hərbi həkim olsun. Həm öz arzusunu, həm də anasının arzusunu həyata keçirsin. Turqut bu məsləhəti böyük həvəslə qəbul etdi. Şərur Türk Liseyini bitirən kimi, 2010-cu ildə imtahan verərək Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə daxil oldu. Beyləqandakı hərbi hissələrin birində tibb məntəqəsinin rəisi idi. Müharibə başlayan ilk gündən komandirindən xahiş edib ki, onu ön cəbhəyə göndərsin. Amma komandiri razı olmayıb. Deyib ki, sən arxa cəbhədə - hospitalda bizə lazımsan. Turqut isə komandiri ilə razılaşmayıb. Deyib ki, arxa cəbhə üçün kifayət qədər həkimlərimiz var. Mən elə ön cəbhədə lazımam, Vətənimizin belə ağır günündə arxa cəbhədə qala bilmərəm. Korpus komandirinə ərizə yazandan sonra ona ön cəbhədə xidmət etməyə icazə verilib. Döyüş bölgəsindən xeyli yaralı çıxarıb, əsgərlərimizin həyatını xilas edib. Yaralılardan birini xilas etməyə çalışarkən görüb ki, onu yenidən vururlar, özünü yaralının üstünə ataraq həyatını xilas edib. Özü isə şəhid olub".

### "Halallığı məndən yox, Vətəndən alsın"

Nadir Hüseynov deyir ki, Turqutun 40 mərasiminə sonuncu dəfə xilas etdiyi qazinin atası gəlibmiş: "Bildirdi ki, oğlu hospitalda müalicə alır. Sağalandan sonra yanınıza gəlmək, sizdən halallıq almaq istəyir. Mən buna qətiyyən razı olmadım. Dedim ki, oğlunun bizə gəlməyinə bir söz demirəm, amma halallıq almaq məqsədi ilə gəlirsə, gəlməsin. Çünki mənim oğlum sənin oğlun üçün yox, Vətənimiz, millətimiz, xalqımız naminə şəhid olub. Halallıq almaq istəyirsə, getsin Vətəndən alsın. Turqutun həyatlarını xilas etdiyi başqa yaralılar da bizə gəlmək, halallıq almaq istəyirdi. Mən onlara da eyni sözü dedim".



Atasının sözlərinə görə, Turqutun ən böyük arzularından biri rezidenturanı oxuyub, yaxşı hərbi həkim olmaq idi: "İşi ilə bağlı heç nə danışmazdı. Müharibədə olduğunu da bizdən gizlətdi. Demədi, müharibədəyəm. O heç vaxt nə bizi incitdi, nə də narahat etdi. Heç vaxt razı olmurdu ki, biz onunla bağlı nədəsə narahatlıq keçirək. Amma özümüzdən asılı olmadan onun hərbçi dostlarını görəndə, yadımıza düşür, yoxluğu ilə barışa bilmirik. Anası Almaz xanım daha çox narahatlıq keçirir. Bizə dostları gələndə, onların içərisində Turqutu axtarır. Boylanıb onlara tərəf baxır, elə bilir, oğlu da onların arasındadır. Amma dərk edəndə ki Turqutu bir daha görməyəcək, çox pis olur. Bunu bilən dostları, hiss edirəm ki, bizə gələndə ehtiyatla davranırlar".

### "Əli ilə açdığı bayrağımıza cənazəsi büküldü"

Toğrulun həmişə məsləhətlərinə qulaq asdığı yaxın qohumu Çingiz Məmmədov da onunla bağlı xatirələrindən söhbət açır: "Mən ehtiyatda olan tibb xidməti polkovnik-leytenantıyam. Turqut Tibb Universitetində oxuyanda bizim evdə qalırdı. Onun hərbi həkim olmasının səbəbkarı mən olmuşam. Həmişə mənə baxıb deyirdi ki, Çingiz əmi, mən sizin davamçınız olacağam. Atası da, özü də üçrəngli bayrağımızı çox sevirdi. Biz oktyabrın 4-ü cəbhə bölgəsinə yardım aparmışdıq. Atası Nadir də bizimlə getmişdi. Onun cəbhə bölgəsinə keçməsi üçün sürücü kimi icazə almışdım. Orada Turqutla görüşdük. Axırıncı görüşümüz elə o oldu. Getdiyimiz avtomobilin üzərinə Azərbaycanla Türkiyənin bayraqlarını bərkitmişdik. Komandir yaxınlaşıb dedi ki, ermənilər uzaqdan bayrağı görüb, avtomobili vura bilər. Xahiş etdi ki, bayraqları açaq. Turqut cəld bayraqları çıxardı və avtomobilə qoyduq. Hərbi hissədən uzaqlaşandan sonra bayraqları yenidən avtomobilə bağladıq. Bakıya çatanda Turqutun atası bayraqları götürüb evlərinə apardı. Qismət elə gətirdi ki, Turqut şəhid olandan sonra cənazəsi əlləri ilə açdığı, özünün toxunduğu bayrağımıza büküldü. Bu gün həmin bayraqlar onların evində divardan asılıb. Bu ailənin bayrağımıza çox böyük sevgisi var.

Turqut mənim övladlarımın biri idi. İki övladım da hazırda Tibb Universitetində təhsil alır. Mən Turqutu onlardan seçmirdim. Biz Turqutun şəhid olmasına heyfsilənmirik. Onunla fəxr edirik, həmişə edəcəyik də. O, Vətən yolunda, Bayraq yolunda şəhid oldu. Nə qədər çətin olsa da, bir o qədər şərəflidir ki, biz bu gün Turqut haqqında danışırıq.

Komandiri ilə söhbətimiz zamanı dedi ki, müharibə başlayanda Turqutu hərbi hissədə 3 gün ancaq saxlaya bildim. Ön cəbhəyə getdi və onlarla yaralının həyatını xilas etdi. Turqut Cəbrayılda, Dostluq bulağı deyilən yerdə şəhid olub. Döyüş meydanından xeyli yaralı çıxarıb. Uzaq məsafədə bir yaralı görüb. Qızğın döyüşlər gedirmiş. Ona həmin əraziyə girməməyi məsləhət görsələr də, qulaq asmayıb. Yaralının düşmən hədəfində olduğunu görüb, özünü üzərinə atıb. Onun həyatını xilas edib, özü isə şəhid olub.



Hazırda ailəsinin yaşadığı küçə Turqutun adını daşıyır. Hərbi tibb fakültəsinin kitabxanasına adı verilib, xatirəsinə bulaq inşa edilib, park salınıb. Bunlar öz yerində. Onun adının əbədiləşdirilməsi üçün parklar salına, heykəli ucaldıla bilər. Amma əsas heykəli bizim ürəyimizdə, qəlbimizdədir".





### "Evimizdə qonaq kimi, cəmi iki gün oldu"

Qardaşı Xəlil Xəlilbəyli onun haqqında danışarkən ilk sözü "Turqut yaxşı qardaş idi" – olur: "Onunla 6-cı sinfə kimi bir yerdə olmuş, bir yerdə oynamışıq. 6-cı sinifdə isə Şərur Türk Liseyinə qəbul oldu. İstər orta məktəbdə, istərsə də liseydə əla qiymətlərlə oxuyurdu. Nizam-intizamlı idi. Liseydə oxuduğu vaxtlar isə onunla yalnız həftəsonları görüşürdük və gec görüşdüyümüz üçün darıxırdım. Hərbi tibb fakültəsinə qəbul olanda da Bakıya gəldi. Yenə də ailəmizdən, məndən uzaq düşdü, darıxdım. Sonra biz Naxçıvandan Bakıya köçdük. Yenə bir yerdə olmadıq. Tale elə gətirdi, onu Bakıdan uzağa, Beyləqana xidmətə göndərdilər. Az-az görüşürdük. O, Bakıdakı evimizdə qonaq kimi, cəmi iki gün olub. Sanki Tanrı onu bizdən uzaqlaşdırmaqla, yoxluğuna öyrəşdirirmiş...

Tibbə aid kitablar, bədii əsərlər oxuyar, idmanla məşğul olmağı sevərdi. Evlənməsi ilə bağlı söhbət düşəndə, zarafata salar, qız tapmağı anamın boynuna atardı. Şəhid olduğunu oktyabrın 7-si axşam bilmişəm. O zaman hansı hisslər keçirdiyimi ifadə edə bilmirəm..."

Qorxmazlığı və cəldliyinə görə döyüş yoldaşlarının "əfsanəvi həkim" adlandırdığı Turqutun şəhidlik zirvəsinə yüksəlməsindən bir il ötdü. Məzarı Bakıda, II Şəhidlər Xiyabanındadır. Ölümündən sonra Prezident İlham Əliyevin sərəncamına əsasən, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", Füzuli və Cəbrayılın azad olunmasına görə medallarla təltif olunub. Xidmət etdiyi hərbi hissədə şəhid polkovnik Şükür Həmidov, əsgər Elnur Vəliyevlə birgə Turqut Xəlilbəylinin də xatirəsi əbədiləşdirilib.

**Allah cəsur və gülərüz Vətən oğluna rəhmət eləsin!**

**Qabil ZİMİSTANOĞLU**





# Ana südü qəbul etmək hər bir uşağın haqqıdır




## Həkimlər və anaların maarifləndirilməsi məqsədilə təlimlər təşkil olunub

**Oktyabrın 5-də Azərbaycan Tibb Universitetinin və UNİCEF-in Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Ana südü ilə qidalanmaya doğru 10 addım” mövzusunda Terapevtik və pediatrik propedevetika, I və II Uşaq xəstəlikləri, I və II Mamalıq və ginekologiya kafedralarının rezidentləri və İctimai səhiyyə fakültəsinin ali tibb bacısı ixtisası üzrə təhsil alan tələbələri üçün təlimlərə start verilib.**

İlk öncə ATU-nun Tədris Terapevtik Kliniksının direktoru, professor Surxay Musayev çıxış edərək təlimdə iştirak edənləri salamladı. O, keçirilən təlimin əhəmiyyətinə diqqət çəkərək, səhiyyəmizdə ana südü, körpələrin qidalandırılması məsələsinə hər zaman önəm verildiyini vurğuladı. Professor ana südü ilə qidalandırmanın alternativi olmadığını və təlimçilərin bu məsələ ilə bağlı vacib və maraqlı məlumatlar verəcəklərinə əminliyini ifadə etdi.

UNİCEF-in Azərbaycan nümayəndəliyinin “Sağlam qidalanma” proqramı üzrə yerli milli məruzəçisi Vəfa Ağayeva öz çıxışında yenidoğulmuş uşaqların qidalanmasında ana südünün rolundan geniş söhbət açdı. Bildirdi ki, ana südü olduğu halda, körpələrin onun alternativi kimi reklam edilən qatqılarla qidalandırılması yolverilməzdi: “Aparılan araşdırmalar göstərir ki, ana südü ilə qidalananlarda immunitet yüksək olur və xəstələnmə hallarına digərləri ilə müqayisədə daha az rast gəlinir. Bu uşaqlarla bağlı həkimə müraciətlərin sayı kəskin dərəcədə az olur. Təbii yolla qidalanmayan körpələr arasında isə 6 ay ərzində ishaldan dünyasını dəyişənlər 25 dəfə çoxdur”.





Körpələri ana südü ilə qidalandırmağın anaların sağlamlığına da müsbət təsir göstərdiyini qeyd edən məruzəçi, misal olaraq, qarında piy vəzinin əriməsini, döş xərçənginə az rast gəlindiyini vurğuladı.

Ana südü ilə qidalanmada 10 addıma riayət etməyin vacibliyinə diqqət çəkən V.Ağayeva əksər doğum evlərində buna əməl olunmadığından təəssüfləndiyini bildirdi: “Tibb müəssisələrinin müvafiq siyasəti olmalı, tibbi heyətin bilik və bacarıqları tələblərə cavab verməli, antenatal qayğı, doğuşdan dərhal sonra qayğı, əmizdirmədə analara dəstək, süni qidalardan uzaq olma, palatada ananın körpə ilə birgə qalmasına şərait yaradılması təmin edilməli, tələbatlara cavab verən qidalandırma olmalı, əmzikli şüşə və əmziklərin ziyanı, evə yazılma zamanı nəyə əməl olunması barədə doğum evlərinin tibbi heyəti tərəfindən analara ətraflı məlumat verilməlidir”.

V.Ağayeva əyalətlərdə vəziyyətin daha pis olduğunu qeyd etdi, Körpə Dostu klinikalarının olması üçün mütəxəssislər arasında maarifləmə işinin aparılmasına ehtiyac duyulduğunu dilə gətirdi.

Digər təlimçi, ATU-nun Tədris Terapevtik Klinikasının pediatr-neanotoloqu Nurəngiz Hacıyeva Körpə Dostu Klinikası strategiyası üzrə UNİCEF-in Səhiyyə Nazirliyi, TƏBİB ilə birgə işləməsinin gələcəkdə müsbət nəticələr verəcəyinə inandığını bildirdi. Qeyd etdi ki, Körpə Dostu Kliniksı anlayışı 1990-cı illərdə dövriyyədə olub: “Həkimlər və neanotoloqlar klinikalara daxil olaraq onların bu strategiyaya cavab verib-vermədiyini qiymətləndiriblər. Qiymətləndirmə isə çox sadədir: klinikada heç bir əmzik, şüşə butulka, süni vasitə, süni qida olmamalıdır. Ana südü ilə qidalanmaya əks göstəriş siyahısı son illər olduqca qısalıb. Yalnız ana südünə əks göstəriş qalaktozema və aktiv fəaliyyətdə olan QİÇS xəstəliyidir. Əgər ana fövqəladə bir vəziyyətə düşübsə, o, QİÇS xəstəsi olsa belə, uşağın həyatı süddən asılıdırsa, onu süddə bəsləyə bilər. Odur ki, ana südü qəbul etmək hər bir uşağın haqqıdır. Biz bunun davamlı təminatını dəstəkləməliyik”.

Qeyd edək ki, təlimlər növbəti günlərdə Nurəngiz Hacıyeva tərəfindən davam etdirilib. O, məruzələrində bildirib ki, ana südü ilə qidalanmanın təməli doğuşdan sonra bir saat ərzində qoyulmalıdır. Eləcə də həkimlərimiz ana südünün faydalarını, əmizdirmə dönəmində südünü təbii yolla necə artırmasını hər bir anaya mütləq izah etməlidirlər. Həkim maraqlı bir məqama da toxunub: “Anada Hepatit C, Hepatit B və COVID-19 viruslarının olması onun körpəsinə süd verməsinə əngəl deyil. Hərarəti olan ana belə uşağını rahatlıqla əmizdirə bilər. Çünki ana südünün tərkibində immuniteti gücləndirən antiviral və antibakterial maddələr var”.

N.Hacıyevanın sözlərinə görə, təbliğat işləri universitetimizlə məhdudlaşmayacaq, təlimçilər və təlimdə iştirak edənlər K.Fərəcov adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda, Sumqayıt Beynəlxalq Xəstəxanasında, Abşeron Mərkəzi Xəstəxanasında və paytaxtın əksər qadın məsləhətxanalarında olacaq, mütəxəssislərə və analara ana südü ilə qidalanmaya doğru 10 addım barədə ətraflı məlumat verəcəklər.

# Uşaqların koronavirusdan qorunması strateji məsələdir

**2019-cu ildə ilk dəfə Çində aşkar olunan COVID-19 virusu tezliklə bütün dünyanı ağuşuna aldı. Bu virusla əlaqədar olaraq 2020-ci ildə pandemiya elan edildi. Artıq xeyli vaxtdır ki, bu infeksiyaya nəinki böyüklər, uşaqlar da yoluxurlar.**

## Könül Cəfərova: “Adətən uşaqlarda yoluxma böyüklərdən fərqli şəkildə gedir və heç bir simptomla özünü göstərmir”





“Aparılan tədqiqatlardan məlum olmuşdur ki, istənilən yaşda olan uşaqlar COVID- 19-a yoluxa bilər. Uşaqların əksəriyyətində yoluxma böyüklərdən fərqli şəkildə gedir və heç bir simptomla özünü göstərmir. Uşaqlar böyüklər kimi yoluxa bilsələr də, onlarda yoluxma tezliyi daha aşağıdır. Çünki uşaqlarda infeksiya nəticəsində letallığın aşağı olduğu məlumdur”. Bu fikirləri ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Könül Cəfərova söylədi.

O, bildirib ki, araşdırmalara əsasən uşaqlar arasında da yoluxma tezliyi eyni səviyyədə ola bilər, lakin təzahür halları olmadığı və ya çox zəif olduğu üçün aşkar edilmir. Lakin uşaqların virusun ötürülməsində rolu hələ də sona qədər müəyyən olunmayıb: “Amerika Pediatriya Akademiyası və Uşaq Xəstəxanaları Birliyinin araşdırmasına görə, ABŞ-da bütün yoluxmaların 13%-i uşaqların payına düşür. 10 yaşdan 14 yaşa qədər olan uşaqların 20 yaş və yuxarı insanlara nisbətən COVID-19 virusuna yoluxma ehtimalı daha aşağıdır. Bir yaşa qədər yenidoğulmuşlar arasında yoluxma riski isə, əksinə, daha yüksəkdir. Bu onların immun sisteminin hələ zəif olması və tənəffüs yollarının kiçik ölçüləri ilə izah edilir. Nəticədə respirator virus infeksiyası zamanı tənəffüs problemləri daha qabarıq olur. Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin tövsiyəsinə görə, nəfəs almalarına yardım göstərilməsi məqsədilə uşaqlar da xəstəxanaya yerləşdirilməli, reanimasiyada müalicə olunmalı və lazım olduqda, ağciyərlərin süni ventilyasiyası tətbiq edilməlidir”.

Bu infeksiyanın uşaqlar arasında yayılmasının xarakterik xüsusiyyətlərindən bəhs edən K.Cəfərova vurğulayıb ki, respirator simptomlar olmadan, mədə-bağırsaq simptomları şəklində özünü göstərə bilər: “Uşaqlarda daha çox qeydə alınan ishal və ürəkbulanmadır. Uşaqlar və yeniyetmələrdə xolestaz, pankreatit və hepatit halları da öz əksini tapıb. Uşaqların əksəriyyəti yoluxmadan sonra 4 həftə ərzində sağalırlar. Davamlı simptomlar arasında baş ağrıları, yuxunun pozulması, əzələ və oynaqlarda ağrılar, ürək döyüntüsünün sürətlənməsi, iybilmə və dadbilmənin pozulması hallarını göstərmək olar. COVID-19 üzrə testlərin meyarları çoğrafi şəraitdən asılı olaraq dəyişir”.

Həkim qeyd edib ki, bu virus zamanı infeksion ishalın davametmə müddəti daha uzun, aparılan müalicəyə reaksiya isə zəif olub: “İshal aradan qaldırıldıqdan sonra uşaqlarda iştahın itməsi, yeməkdən sonra diskomfort, ürəkbulanma, meteorizm uzun müddət davam edir. Nəticədə ferment əsaslı preparatların təyin edilməsinə tələbat yaranır. Qastrointestinal simptomlar uşaqlarda multisistem iltihabi sindromun əsas təzahür hallarından biri kimi qiymətləndirilir. Buraya qarında ağrılar, ürəkbulanma, ishal, odinofagiya (döş qəfəsi arxasında və udqunduqda ağrılar) daxildir. Xəstəliyin klinik mənzərəsi qastroenteritlər ilə eyniyyət təşkil edir. SARS-CoV-2 virusu ilə hospitallaşdırılan uşaqların 64%-də ishal, 57%-də andominal ağrı sindromu, 67%-də isə mədə-bağırsaq traktı disfunksiyası qeydə alınıb. Əsas müalicə kursuna kəskin bağırsaq infeksiyası əleyhinə müalicə də əlavə edildikdə, simptomatika aradan qaldırılır”.

Virusun yayılmasına qarşı tədbirlərdən də danışan K.Cəfərova söyləyib ki, uşaqların virusdan qorunması həm ailələr, həm tədris-tərbiyə müəssisələri, həm də təlim-əyləncə mərkəzləri tərəfindən ümdə məsələ kimi qəbul olunmalıdır. Ona görə də bütün qaydalara bu müəssisələrdə birmənalı və ən yüksək səviyyədə əməl edilməlidir: “Uşaqlar bizim gələcəyimizdir. Bu ağır pandemiya dövründə isə gələcəyimizin sağlam və gümrah yetişdirilməsi həm biz həkimlərin, həm də valideyn və müəllimlərin əsas borcudur”.

**M.ƏLƏKBƏRLİ**

# Kəlbəcərdən ATU-ya əsgər məktubu



**Salam, hörmətli «Təbib» qəzeti!**

Kəlbəcər dağlarının uca zirvələrinin birində hərbi postda qərar tutan Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin bölüyündə xidmət edən əsgər və zabitlər universitetinizin əməkdaşı Abbasova Könül Şirəli qızına bizə toxuyub yolladığı yun corab dəstlərinə görə səmimi təşəkkürlərini bildirirlər.

Təmənnasız olaraq yolladığınız bu hədiyyə lap vaxtında bizə çatıb. Bizi düşündüyünüzə görə sizə və çalışdığınız kollektivin bütün əməkdaşlarına qəzetiniz vasitəsi ilə minnətdarlığımızı bildirməyinizi xahiş edirik.

# Qocaman idmançının 80 illik yubileyi qeyd olunub

## Adil Dadaşov yüzlərlə müxtəlif dərəcəli idmançılar yetişdirib

**ATU-nun "Təbib" idman klubunun əməkdaşları uzun illər onlarla birgə çalışan, hal-hazırda təqaüddə olsa da, doğma kollektivlə daim əlaqə saxlayan, məsləhətlərini gənc həmkarlarından əsirgəməyən qocaman idmançı Adil Dadaşovun 80 illik yubileyini qeyd ediblər.**



"Təbib" idman klubunun sədri Qələndər Aslanov yubilyarın ömür yolu haqda qısa məlumat verərək bildirib ki, A.Dadaşov 1955-ci ildə idmanın sərbəst güləş növü üzrə SSRİ idman ustası adına layiq görülüb. İnstitutu bitirdikdən sonra "Burevestnik" idman cəmiyyətinin güləş bölməsinə baş məşqçi təyin olunan A.Dadaşov 1964-cü ildən peşəkar idman müəllimi kimi Azərbaycan Tibb İnstitutunda da fəaliyyətə başlayıb: "1971-ci ildə Tibb İnstitutunda baş müəllim vəzifəsinə təyin olunub və 2015-ci ilədək həmin vəzifədə Azərbaycanın idman şərəfini qoruyaraq, universitetimizi beynəlxalq arenada layiqincə təmsil edib. Bu illər ərzində Adil müəllim yüzlərlə müxtəlif dərəcəli idmançılar yetişdirib. Onlardan SSRİ idman ustası Murad Mərdanov, Kik-boks üzrə dünya çempionu Canpolad Budaqov, millət vəkili, karate üzrə üççat dünya çempionu Ülvi Quliyev və başqalarının adlarını iftixarla çəkə bilərik. Həmçinin universitetimizin əməkdaşları Cahangir Qasımov, Oqtay Mehdiyev, tanınmış peşəkar həkimlər və digər sahələrdə çalışan mütəxəssislər Adil müəllimdən dərs alıblar".

Q.Aslanov fəaliyyəti dövründə ali təhsil müəssisələri arasında keçirilən Respublika universiada və çempionatlarında ATU-nun güləş bölməsinin hər il birincilik əldə etdiyini və Adil müəllimin rəhbərlik tərəfindən dəfələrlə təşəkkürnamə aldığını diqqətə çatdırıb. İstər pedaqoji və məşqçilik fəaliyyətini, istərsə də tələbələrlə davranış qaydalarını, ünsiyyəti Adil müəllimdən öyrəndiklərini və bununla fəxr etdiklərini söyləyən Q.Aslanov ömrünün müdriklik çağını yaşayan yubilyarı idman klubunun kollektivi adından təbrik edib, ona möhkəm cansağlığı arzulayıb.

İdman klubunun əməkdaşları - professor Zakir Məmmədov, Cəlaləddin Babayev, Sevinc İsayeva, Aybəniz Əliyeva, Xatirə Şıxlı, "Təbib" idman kompleksinin direktoru Nuriyə Seveşova və başqaları da çıxış edərək Adil müəllimlə bağlı xatirələrini bölüşüblər, ən xoş arzularını dilə gətiriblər.

Tədbirin sonunda xüsusi təşəkkürnaməni qəbul edən A.Dadaşov ona göstərilən bu diqqətdən çox məmnun olduğunu söyləyərək, doğma kollektivə minnətdarlığını bildirib.

### Etibarsız sayılır

Stomatologiya fakültəsinin tələbə kontingentində qalan məzunu Rouhı Karehnab Arman Abbas oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 717İ6 qrup tələbəsi Mahmondı Alıreza Azizollah oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II Müalicə işi fakültəsinin V kurs, 317A27 qrup tələbəsi Umarov Emil Xəzər oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I Müalicə işi fakültəsinin V kurs, 117İ3 qrup tələbəsi Dalfi Zaid Jaafar Gumarın tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I Müalicə işi fakültəsinin IV kurs, 118A1B qrup tələbəsi İsmayılova Gülqayıt Oktay qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II Müalicə işi fakültəsinin III kurs, 219A1B qrup tələbəsi Abdullayeva Lalə Məmməd qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin tələbə kontingentində qalan məzunu Esmaeılı Sharmın Mırtayyebin tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 518A2B qrup tələbəsi Bilal Dündar Sirac oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II Müalicə işi fakültəsinin V kurs, 317İ3 qrup tələbəsi Afnan Al-Dulaımı Khalid qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Dermatovenerologiya kafedrasının dosenti dünyasını dəyişib

**ATU-nun Dermatovenerologiya kafedrasının dosenti, Fəxri həkim, tibb üzrə fəlsəfə doktoru Əliyeva Svetlana Ağa Əli qızı 82 yaşında vəfat edib.**



S.Əliyeva 2 fevral 1939-cu ildə Bakı şəhərində anadan olub.

1956-1962-ci illərdə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsində təhsil alıb. 1962-1966-cı illərdə Azərbaycan Dövlət Universitetinin İnsan və heyvanların fiziologiyası kafedrasında aspirantura oxuyub.

1966-cı ildən 2020-ci ilə kimi Azərbaycan Tibb Universitetinin Dermatovenerologiya kafedrasında əvvəlcə baş laborant, sonra assistent və daha sonra dosent vəzifəsində çalışıb.

1994-cü ildə "Оптимизация глюкокортикостероидной терапии больных пузырчаткой под контролем уровня тирозина в крови" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş S.Əliyeva həm də dosent elmi adına layiq görülüb.

2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən ona "Fəxri həkim" adı, 2009-cu ildə 70 illik yubileyi ilə əlaqədar ATU-nun rektoru tərəfindən "Fəxri fərman" verilib.

Dermatovenerologiya kafedrasının kollektivi hörmətli dosentimiz, gözəl insan Svetlana Ağa Əli qızı Əliyevanın vəfat etməsindən kədərlənir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# Doktor Ramil Həsənli koronavirusdan vəfat edib

**Azərbaycan Tibb Universitetinin məzunu, Türkiyə Cümhuriyyətinin Qazi Universitetində təhsilini davam etdirən və həmin universitetin xəstəxanasında çalışan Həsənli Ramil Rasim oğlu COVID-19 virusunun nəticəsi olaraq ağciyər pnevmaniyası səbəbindən dünyasını dəyişib.**



Məlumat üçün bildirək ki, 2008/2014-cü illərdə ATU-da təhsil alan Ramil Həsənli tələbə olduğu müddətdə həm də Klinik Tibbi Mərkəzdə çalışıb. O, 2017-ci ildən sağlamlıq turizmi sahəsində işləyib. 2014-cü ildən etibarən diplomdan sonrakı təhsillə bağlı xarici ölkələr üzrə konsultant kimi də fəaliyyət göstərib. Bu fəaliyyəti 2015-ci ildən "doktoraz.com" saytı üzərindən davam etdirib.

R.Həsənli 2018-ci ildən etibarən Kocaeli universitet xəstəxanasının kardioloji servis, poliklinika, kardioloji reanimasiya, aritmologiya şöbələrində, laboratoriyada çalışıb. 2019-cu ildən Hat Medicine və Ay klinikalarında fəaliyyətini davam etdirib.

Doktor Ramil Həsənli Türk Kardioloji Dərnəyi başda olmaqla, bir çox tibbi cəmiyyətlərin üzvü olub.

2019-cu il martın 14-də İstanbul Universitetinin 100-cü medalı və həmin il mayın 16-da "İlin həkimi" mükafatına layiq görülüb. "Kardiologiya RH" kitabının baş redaktoru olub.

R.Həsənli əsasən arterial hipertoniya, ürəyin işemik xəstəlikləri, ürək çatışmazlığı, ürəyin ritm pozğunluqları, ürək qüsurları və s. xəstəlikləri müalicə edib.

O, ömrünün sonunadək Türkiyədə fəaliyyət göstərən Əcnəbi həkimlər və tibb tələbələri dərnəyinə də rəhbərlik edirdi.

**Allah rəhmət eləsin!**

### Allah rəhmət eləsin!

Ailə təbabəti kafedrasının kollektivi kafedranın müdiri Mustafa Salihova qardaşı

**Rauf Salihovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş laborantı Aygün Cəbrayılovaya atası

**Rəfael müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər, Qidalanma və tibbi ekologiya kafedralarının əməkdaşları Yoluxucu xəstəliklər kafedrasının dosenti

**İlham Bayramovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKF-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250